# Tarixə nur saçan ömürlər




*Yazıçı Oqtay Altunbay zəmanəmizin tanınmış imzalarındandır. Onun müxtəlif mövzuları əhatə edən xeyli əsərləri işıq üzü görüb. Xalqın milli qəhrəmanlıq tarixini əks etdirən "Tomris", "Şeyx Nizami", "Kərbəlada doğan günəş" və s. on beş kitabın müəllifidir. Son illər yazdığı "Zülmətdən doğan günəş" bədii-siyasi sənədli tarixi əsəri isə ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəldiyi dövrdən və onun rəhbərliyi ilə bugünkü müstəqil dövlət uğrunda gedən mübarizədən bəhs edir.*

Müəllifin ötən il işıq üzü görən "Tarixə nur saçan ömürlər" kitabı da olduqca maraqlı faktlara söykənir. Kitabın ilk səhifəsində iki böyük şəxsiyyətin - türk dünyasının liderləri Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaqdır", Mustafa Kamal Atatürkün "Tarixi yazmaq tarixi yaratmaq qədər şərəflidir" deyimləri ilə başlayır. Əsər tarixi dövrü əhatə edir. Bədii-tarixi üslubda yazılmış kitabda tanınmış dühalar, sərkərdələr və onların keçdiyi şərəfli həyat yolu, azadlıq, müstəqillik uğrunda apardıqları mübarizələr canlandırılıb. Müəllif oxucuları, xüsusilə də gənc nəsli milli-mənəvi dəyərlərimizi, tariximizi öyrənib qorumağa çağırır.

"Haqqın günəşi" adlı ikihissəli tarixi dramda peyğəmbərlərin həyatı işıqlandırılır. İslam dininin böyük elm olması ilə bərabər, onu təbliğ edən peyğəmbərlərin həyatı da nümunə olmalıdır. Bu mənada, müəllif əsərdə İslam dininin müqəddəsliyini və tərbiyəvi əhəmiyyətini ön plana çəkmişdir. Haqsızlığa, zülmə qarşı aparılan mübarizədən geniş şəkildə bəhs olunur, mərhəmət, xeyirxahlıq təbliğ edilir. İnsanın, peyğəmbər övladının zülm və işgəncələrə göstərdiyi dözüm və səbirdən söhbət açılır. Uzun illər insanların bütlərə, daş parçalarına və ağac heykəllərə sitayişinin İslam sevgisinə çevrilməsi aydın şəkildə özünü büruzə verir. Əsərdə maraqlı cəhətlərdən biri də peyğəmbərlərin iç dünyasının, tutduğu mövqeyin dəqiqliklə verilməsidir.

"Əbədi nur" əsərində də hadisələr oxşar xronologiya ilə davam edir. Burada əsasən müsəlmanların din yolunda mübarizəsindən söhbət açılır. Kərbəla müsibəti, İmam Hüseyn və silahdaşlarının şəhadətə yüksəlməsi verilib.

Daha sonra kitabda "Şeyx Nizami" adlı əsərdə şairin həyat və yaradıcılığından hökmdar Atabəy Məhəmmədlə münasibətindən söz açılır. "Şah və Sultan və ya Çaldıran fəlakəti" adlı ikihissəli tarixi faciədə Şah İsmayıl Xətai, Sultan Səlim və digərlərindən bəhs edilir. Əsər Əmir Zəkəriyyənin sözləri ilə başlayır: "Axı güclülər nədən bu qədər yüksəklərdə parlaya bilirlər?". Əlbəttə ki, burada Əmirin güclü dediyi zalım qüvvələr nəzərdə tutulur. O da məlumdur ki, bütün dövrlərdə şər üzərində xeyir, haqsızlığa ədalət, xainlərə isə ağıllı, müdrik sərkərdələr qalib gəlib. Bu mənada, Şah İsmayılın əsərdəki ilk fikirləri olduqca ibrətamizdir: "Axı nə üçün? Bu qardaş qırğınları nə vaxt bitəcək? Əmir Teymurla İbrahim Bəyazid savaşı Türk tarixinə nə qazandırdı? Moskva fatehi Toxtamış xanla cahangirlik iddiasında olan Əmir Teymur, Sultan Mehmet Fatehlə Ağqoyunlu hökmdarı babam Uzun Həsənin müharibələri türklüyə nə qazandırdı? Ölüm və nifrət uçurumları! Dünyada şərəfinin qaralmasına, düşmən qılınclarının parlamasına yol açdı".

Tarixdən məlumdur ki, Türk sərkərdələri hər zaman ağlı, müdrikliyi və sözünün kəsəri ilə seçilib. Onlar üçün söz qılıncdan kəsərli olub. Bu gün də belədir. Birləşən Türk dünyası və liderləri öz zəka və müdriklikləri ilə dünya nizamına sülh, əmin-amanlıq gətirirlər. Bu əsər həm də oxucuya aydın şəkildə keçmişlə zəmanəmizin müqayisəsini aparmağa zəmin yaradır. Bənzər və oxşar tarixlər yenidən təkrarlanır. Sonunda isə qalib gələn haqq-ədalət olur. Çünki sərkərdələr bütün dövrlərdə dövlət üçün qoruyucu simadır.

Oqtay Altunbayın qələmə aldığı kitabda sonuncu əsər "İmperiya günəşinin qürubu" adlanır. Əsərdə filosof və alimlərin, yunan tarixçisi Herodot, Midiya Turan imperiyasının xaqanı Alp Ər Tonqa və digərlərinin maraqlı söhbət və dialoqları yer alır. Müəllifin mövzuya münasibəti və yanaşması olduqca fərqlidir. Dahi insanların, böyük sərkərdələrin dünyanın bütün şər qüvvələri qarşısında sarsılmaz iradəsi və insanı ülviləşdirib göylərə ucaldan inamı, etiqadı, zəkası özünü aydın şəkildə göstərir.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 26 yanvar (№17).- S.10.